# İllər onu cəsur yetişdirdi



**Azərbaycan Ordusunun əsgəri Təbriz Əsgərov müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq 2020-ci il sentyabrın 27-də başlayan II Qarabağ savaşında Hadrutun, Qubadlının, Zəngilanın azad edilməsi, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi uğrunda gedən döyüşlərdə fərqlənib. 8 noyabr 2020-ci ildə Şuşada şəhid olub. Noyabrın 13-də Naxçıvanda torpağa tapşırılıb.**

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən Təbriz Əsgərov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Təbrizin əmisi oğlunun xatirələrindən: "Təbriz mənim əmim oğlu ilə yanaşı həm də qardaşım idi. Evlərimiz yaxın olduğundan birlikdə böyümüşdük. Sanki bir yox, iki qardaşım var idi. Beləcə illər keçirdi. Biz böyüyürdük, dəcəlliklər bizi tərk etsə də, uşaqlıqdan onda yaranan qeyri-adi xarakter və vətənpərvərlik hissləri artırdı. Həmişə məktəb illərində işğal altında olan torpaqlarımızdan danışanda düşmənə olan böyük nifrət onun gözlərindən oxunurdu. İllər onu cəsur bir gənc kimi yetişdirdi. Her şey düşmənin torpaqlarımıza hücum cəhdləri ilə başladı. Müharibə xəbəri tez yayıldı. Biz isə səbirsizliklə cəbhəyə gedəcəyimiz günü gözləyirdik. Oktyabr ayının 11-i cəbhəyə getmək üçün yola düşdük. Biz cəbhə bölgəsinə yollandıq. Elə bir həftə olardı ki, əməliyyatlar davam edirdi. Dincəlmək üçün yenicə oturmuşdum ki, gözlərim kiminsə əlləri ilə qapandı. Sonra gözlərimin önündə onu - Təbrizi, birlikdə böyüdüyüm qardaşımı gördüm. Onu görəndə həm qürür, həm də narahatlıq keçirdim. Qürürluydum, çünki bu yola onunla birlikdə çıxmışdım, ailəmizdən biri daha vətəni müdafiə üçün hazır idi, digər tərəfdən isə hər şeyin ola biləcəyi, onu itirə biləcəyim düşüncəsi ağlıma gəldi. Amma tezliklə bu fikirdən daşınmağa çalışdım. Biz bir-birimizdən ayrıldıq. Ayrı bölüklərdə vətənin müdafiəsinə başladıq. Torpağımızı işğaldan azad etdik, şəhid verdik, amma bir addım belə geri çəkilmədik, hər ikimiz cənub bölgəsindən döyüşlərə qoşulmuşduq. Bu yolda bizim bölükdən olan Aqil Quliyev şəhid oldu. Dostum Aqili xəstəxanaya gətirmək üçün yola düşdüm. Bu mənə ondan qalan yeganə xatirə idi, bu saat onun qəlbimdəki həsrətinə təsəlli idi. Onu xəstəxanaya çatdırdıqdan sonra Təbrizin daxil olduğu bölüyün Şuşaya doğru irəlilədiyi xəbərini aldım. Elə biz də Şuşa istiqamətində iki gün ağır sınaqlardan çıxdıq, düşmənlə üz-üzə gəldik, amma qələbəni təmin edə bildik, çünki düşmən buraların öz torpağı olmadığını bilirdi, ona görə də bu torpaq uğrunda canını verənlərdən qorxaraq arxalarına belə baxmadan qaçdılar. Şuşanı aldıqdan sonra atəşkəs xəbərinin sevinci ilə evə zəng etdim, hal-əhval tutduqdan sonra Təbrizi soruşdum, ondan bir xəbər yox idi, evlə əlaqə saxlamamışdı. Bu xəbər məni sarsıtdı, onu axtarmağa, ondan xəbər tutmağa çalışdım.

Elə onu axtarırdım ki, Təbrizin taborundan bir əsgər gördüm. Kiməsə işarə edir, "Əsgərov ordadır", - deyirdi. Sanki ayaqlarım titrədi, addım ata bilmədim, bir müddət elə beləcə qaldıqdan sonra irəlilədim, bir nəfərin üzüstə uzandığını gördüm, çevirəndə şəhid Məmmədov Kəmaləddin olduğunu gördüm. Əmin oldum ki, artıq Təbriz də şəhid olub, çünki onlar birlikdə idilər, yan-yana vuruşurdular. Sonra isə şəhidlərin yanına yüyürdüm, onların üzlərinə baxdım. Birdən Təbrizin ağarmış simasını gördüm, gözləri qapalı idi, sanki yuxuya getmişdi. Mənə elə gəlirdi ki, çağırsam, oyanıb qalxacaqdı. Yaxınlaşıb çağırdım, cavab vermədi. Uşaqkən yaşadığım xatirələr film kimi gözümün önündən keçirdi. O şəhidlik zirvəsinə ucalmışdı, illərlə vətən eşqi ilə yaşamış, bu arzusuna çatmışdı.

Bu gün Təbrizin məzarı başında onun məsum baxışlarına baxarkən bir təsəllim var: rahat yat, qardaşım. Torpaqlarımız yağı düşmən əlindən geri alındı və bil ki, sonadək sən də bizimlə birlikdə irəlilədin, çünki şəhidlərin hər biri bu torpaqların alınması uğrunda canı və qanını fəda etdi".

**M.CƏFƏROV,**
**"Respublika".**